Dövlətimiz tarixi missiyanı layiqincə yerinə yetirdi

Ötən ay ölkəmizdə keçirilən COP29 konfransı uğurla başa çatdı. Bakıda planetin təbii fəlakətlərdən xilas edilməsi naminə tarixi razılaşmalar və vacib qərarlar qəbul edildi. Bir çox ekspertlər hesab edirdilər ki, Azərbaycanın COP29-un sədri olaraq müəyyən etdiyi ambisiyalı iqlim maliyyəsi kimi mürəkkəb bir vəzifənin öhdəsindən gəlməsi bir o qədər də asan olmayacaq.

Konfransa hazırlıq, dünya ölkələri və beynəlxalq təşkilatlarla danışıqlar aparmaq üçün ölkəmizin çox az, cəmi 11 ay vaxtı vardı. Exspertlər həm də onu nəzərə alırdılar ki, 2015-ci ildə Paris Sazişinə əsasən iqlim dəyişmələrinin təsirinin azaldılması və uyğunlaşma məqsədilə hər il ödənilməli olan 100 milyard dollarlıq maliyyə hədəfinə 7 il gecikmə ilə yalnız 2022-ci ildə çatmaq mümkün olmuşdu.

(davamı 5-ci səhifədə)

COP29 Baku Azerbaijan

Yaşıl dünya naminə həmrəy olaq!

COP *- İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası insanın iqlim mühitinə təhlükəli müdaxiləsinin qarşısını almaq məqsədilə 1992-ci ilin iyununda Rio-de-Janeyro şəhərində keçirilmiş Yer Sammitində imzalanmış sazişdir. COP (Conference of Parties) abreviaturunun ingilis dilindən tərcüməsi Tərəflər Konfransı deməkdir. Tərəflərin Konfransı İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icrasına nəzarət edən ali qərarverici orqandır. Bu Konvensiyaya üzv olan 190-dan çox ölkə var.*

Cari il noyabrın 11-23-də Bakıda keçirilən COP29-un yekun iclasında mühüm qərarlar qəbul olundu.

COP29
BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası

Dövlətimiz tarixi missiyanı layiqincə yerinə yetirdi

(əvvəli 1-ci səhifədə)

Digər tərəfdən, geosiyasi qütbləşmənin və parçalanmanın dərinləşməsi, Qlobal Şimal və Qlobal Cənub arasında fikir ayrılığı, qarşılıqlı ittihamlar Bakının qarşıya qoyduğu yeni iqlim maliyyəsi hədəfinə xeyli maneələr yaradırdı. Bütün bu çətinliklərə, o cümlədən COP29 əleyhinə aparılan qarayaxma kampaniyasına baxmayaraq, dövlətimizin bu vəzifənin öhdəsindən uğurla gəlməsi tarixi nailiyyətdir. Bunların hər birini dərindən təhlil edən Prezident İlham Əliyev çox dəqiq və nəticəyönümlü strategiya müəyyən etdi. Strategiyaya əsasən Azərbaycan bəyan etdi üzərinə götürdü və bu tarixi missiyanı layiqincə yerinə yetirdi.

Rəsmi Bakının COP29-a ev sahibliyi etməsi, əldə etdiyi uğurlu nəticələr, qəbul olunan qərarlar, yüksək təşkilatçılıq, xalqımızın qonaqpərvərliyi, Bakının füsunkar gözəlliyi, zəngin mədəniyyətimiz və mətbəximiz haqqında demək olar ki, dünyanın bir çox ölkələri, mediası xoş sözlər dedilər, hətta bəzi bədnam qüvvələr də bu reallıqları etiraf etməyə məcbur oldular.

Prezident İlham Əliyev bu tarixi konfransın əhəmiyyəti barədə demişdir: "Azərbaycan bir ildən az müddət əvvəl beynəlxalq ictimaiyyətin yekdil dəstəyi ilə COP29-a ev sahibliyi etməkdən şərəf duydu. Müddətin qısa olmasına baxmayaraq, Azərbaycan COP-un rahat və yüksək səviyyədə keçirilməsi üçün bütün lazımi hazırlıqları həyata keçirməyə nail oldu. Mübaliğəsiz deyə bilərik ki, Bakı COP tədbiri ən möhtəşəm COP-lardan biri kimi tarixə düşəcək. Biz 80 dövlət və hökumət başçısının, 196 ölkədən qeydiyyatdan keçmiş 76 mindən çox iştirakçının qatıldığı COP29-un çox yaxşı təşkil olunması ilə bağlı bütün qonaqlardan yüksək qiymət almaqdan qürur duyuruq".

Qlobal iqlim konfransında 10-dan çox beynəlxalq əhəmiyyətli qərar, təşəbbüs, çağırış qəbul edildi və bir sıra istiqamətlərdə yeni koalisiyalar yaradıldı, bütün bunların hər biri Bakı adı ilə tarixə düşdü. Bu isə o deməkdir ki, uzun illər dünya ölkələri və beynəlxalq təşkilatlar paytaxt şəhərimizdə qəbul edilən qərarlara və təşəbbüslərə istinad edəcək və ondan faydalanacaqlar. Bu isə dövlətimizin uğurlarının daim xatırlanması deməkdir.

Qəbul edilən vacib qərarlardan biri "Bakı Maliyyə Məqsədi"dir ki, bu sənəd 2035-ci ilə qədər inkişaf etməkdə olan ölkələrə 1,3 trilyon ABŞ dolları həcmində iqlim maliyyəsinin təmin edilməsi üçün yeni qlobal hədəf müəyyənləşdirdi. Bura əvvəlki 100 milyard ABŞ dolları həcmində hədəfi üç dəfə üstələyən, ilə 300 milyard ABŞ dolları həcmində yeni illik maliyyə hədəfi daxildir. Eyni zamanda BMT çərçivəsində yüksək inteqrasiya edilmiş karbon bazarlarına dair 6-cı maddə üzrə 10 il davam edən danışıqlar Bakıda yekunlaşdı və karbon bazarlarından maliyyə axınlarının 2050-ci ilə qədər ildə 1 trilyon ABŞ dollarına çatması hədəfləndi.

Bundan başqa, "İqlim Maliyyəsi, İnvestisiya və Ticarət üzrə Bakı Təşəbbüsü", "İqlim Davamlılığı üçün İnsan İnkişafı üzrə Bakı Təşəbbüsü", "Fermerlər üçün Bakı Harmoniya İqlim Təşəbbüsü", "İqlim və Səhiyyə üzrə Davamlılıq Koalisiyası" təsis edildi, habelə "Enerji üzrə öhdəliklər", "COP29 Yaşıl Rəqəmsal Fəaliyyət Bəyanatı", "Üzvi Tullantılardan Metanın Azaldılmasına dair Bakı Bəyannaməsi", "Davamlı və Sağlam Şəhərlər üçün Çoxsahəli Fəaliyyət Yollarına dair Bakı Bəyannaməsi", "Turizm sektorunda Təkmilləşdirilmiş İqlim Fəaliyyəti üzrə Bakı Bəyannaməsi", "İqlim Fəaliyyəti naminə COP29 Bəyannaməsi" və digər mühüm sənədlər qəbul edildi.

Beləliklə, iqlim maliyyələşdirilməsində irəliləyiş əldə olundu. İnkişaf etmiş ölkələrdən inkişaf etməkdə olan ölkələrə maliyyə vəsaitlərinin axınını təmin etmək üzrə konkret addımlar təsdiqləndi, İtki və Zərər Fondu tam işlək vəziyyətə gətirildi. Qlobal həmrəylik nümayiş etdirildi. COP29 inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında ədalətli iqlim həlləri tapmaq üçün önəmli platforma oldu. Texnoloji və elmi işbirliyi, yeni texnologiyalar və metodlar üzrə müzakirələr gələcəkdə qlobal miqyasda emissiyaların azaldılmasına töhfə verəcək.

COP29 Azərbaycanın tarixi rolunu, mədəni irsini, iqlim məsələlərində qlobal dəyərlərə inteqrasiyanı əks etdirir. Dövlət-xalq birliyi sayəsində ərazi bütövlüyünü, suverenliyini bərpa etmiş respublikamız bəşəriyyətin gələcəyi ilə bağlı Tərəflərin birliyini, sivilizasiyalar və mədəniyyətlərarası həmrəyliyi diplomatiya gücü ilə həll etmiş oldu.

Prezident İlham Əliyevin vurğuladığı kimi, COP29-a yekdil qərarla ev sahibi seçilməsinin böyük şərəf olduğunun fərqində olan dövlətimiz, xalqımız tədbirə hazırlığı da, sessiyanın yüksək səviyyədə keçirilməsini də o böyük şərəfə uyğun məsuliyyətlə yerinə yetirdi. Şərəflə məsuliyyətin yanında vurğulamaq istədiyimiz başqa kateqoriyalar isə sayğıduyarlıq və qürurdur: "Biz bunu beynəlxalq ictimaiyyətin Azərbaycana və gördüyümüz işlərə, o cümlədən "yaşıl enerji" sahəsindəki fəaliyyətimizə hörmətinin əlaməti hesab edirik. ...COP29-un çox yaxşı təşkil olunması ilə bağlı bütün qonaqlardan yüksək qiymət almaqdan qürur duyuruq".

COP29 Azərbaycanın, BMT-nin, Tərəflərin bəşəriyyətə, gələcək nəsillərə töhfəsidir. Azərbaycan 2025-ci ilin noyabrına kimi COP29-un sədri və sonrakı illərdə "COP Troykası"nın üzvü olaraq Bakıda qəbul olunmuş qərarların və əldə edilmiş razılaşmaların icrası, bir sıra təşəbbüslərin institutlaşması istiqamətində missiyasını və qlobal liderliyini uğurla davam etdirəcək. İqlim tədbirlərində daha konkret həllər və işbirliyi modellərinə üstünlük verən Azərbaycan hazırda "Yaşıl dünya naminə həmrəylik ili"ni yaşayır.

Bayram SALMANOV,
"Respublika".